Səh. 2 Pozulmuş demoqrafik tarazlıq – Afiq Muxtaroğlu

Səh. 5 Əsirlikdə olan xatirələr və ya Borçalı qızı Xankəndidə – Esmira Ələkbərli

Səh. 6 Kəndin astagəlliyi, şəhərin qaçhaqaçı – Aytən Fətullayeva

Səh. 6 Sonrakı peşmançılıq fayda verməz – Validə Fətullayeva

Səh. 3 Əli qanlı “müasir” dünya – Lamiyə Hacıyeva

Səh. 4 XALQ MÜDAFİƏÇİSİ: 2022-Cİ İLDƏ 815 AZYAŞLI HAMİLƏ QEYDİYYATA ALINIB

Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 OKTYABR
2023-CÜ İL
№ 020 (191)


# Yeni YOL


Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## BAŞ NAZİR: 2024-CÜ İLDƏN MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI 500 LARİ VƏ DAHA ÇOX ARTIRILACAQ"



Baş nazir İrakli Qaribaşvili Milli Müəllim Günündə çıxışı zamanı müəllim peşəsinin daha çox qiymətləndirilməsi və müəllimlərin fəaliyyətinə daha yaxşı şərait yaratmaq üçün hər şey edəcəklərini qeyd edib.

“Müəllim sözünün özü bu statusun nə dərəcədə şərəfli olduğunu deyir. Sizə xüsusi hörmətimi bildirmək istəyirəm: siz ölkəmizin xüsusi vətəndaşlarısınız; ictimaiyyətin, övladlarımızın dövlətçilik təfəkkürünün vətənpərvər şəkildə formalaşdırılması işində əsas rol, funksiya bizim layiqli, əməkdar, qəhrəman müəllimlərimizin öhdəliyinə düşüb.

Yeniyetmənin inkişafına və düşüncəsinə, onun dünyagörüşünün formalaşmasına, ailəsi ilə birlikdə ən böyük təsiri siz müəllimlər və məktəb göstərə bilər.

İctimaiyyətdə sizin xüsusi rolunuzun qeyd olunması və qiymətləndirilməsi üçün ilk dəfə Milli Müəllim Günü və mükafatı təsis edildi. Təhsil nazirinin təşəbbüsü ilə tarix də simvolik olaraq İakob Qoqebaşvilinin doğum günü seçildi.

27 oktyabr təhsil sisteminin inkişafında öz xüsusi töhfəsini vermiş pedaqoqlar mükafatlandırılacaq və onlara 10 min lari pul veriləcək.

Təhsilli nəsil bizim ölkənin güclü təməlidir. Onun möhkəmliyində siz ölçülməz rol daşıyırsınız. Yaxşı bilirəm, siz müəllimlər necə böyük əmək verirsiniz.

Bizim, hamımızın sevimli müəllimlərimiz var. Onlar bizim düşüncəmizdə vacib iz qoyublar. Hökumət bu böyük əməyi yaxşı dərk edir və bu peşənin prestijini qaldırmaq üçün daha çox iş görməliyik, bunun üçün işləyirik. Pedaqoqların şəraitini yaxşılaşdırmaq üçün davamlı şəkildə işləyəcəyik və 2024-cü ildə nazirlik üçün əlavə olaraq yarım milyard lari pul ayrılacaq. Buradan 160 milyon lari müəllimlərin əməkhaqqının artırılmasına sərf olunacaq. Əməkhaqqı təxminən 500 lari və daha çox artırılacaq”, – deyə İrakli Qaribaşvili bildirib.

## TBİLİSİDƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 100 İLLİYİ QEYD OLUNUB



Tbilisidə Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə tədbir keçirilib.

Tədbirdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, xarici işlər naziri İlia Darçiaşvili, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orkay, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və Gürcüstanda fəaliyyət göstərən bir çox ölkələrin səfirləri, diplomatik nümayəndələri, iş adamları, eləcə də media nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Bakı-Tbilisi-Qars dəmiryolu, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru xətlərinin önəmini vurğulayıb. Bu layihələrin hər üç ölkənin iqtisadiyyatına, eləcə də ölkələr arasındakı münasibətlərin daha da möhkəmlənməsinə öz töhfəsini verdiyini xüsusi qeyd edib.

“Türkiyə Gürcüstana ən çox investisiya yatıran ölkədir. Ümid edirəm ki, bu əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək. Həyata keçirəcəyimiz regional, enerji, nəqliyyat və logistik layihələrin sayı, investisiyaların həcmi daha da artacaq”, – deyə İ.Qaribaşvili bildirib.

Tədbirdə həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə videomüraciəti də nümayiş etdirilib.

## İ.QARİBAŞVİLİ: REGİONDA SÜLHÜN, SABİTLİYİN VƏ İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİ İSTİQAMƏTİNDƏ SƏYLƏRİMİZİ DAVAM ETDİRMƏYƏ HAZIRIQ

Gürcüstan hakimiyyəti regionda sülhün, sabitliyin və iqtisadi inkişafın təmin edilməsi üçün səylərini davam etdirməyə hazırdır. Bunu Baş nazir İrakli Qaribaşvili sosial şəbəkələrdəki hesabında paylaşıb.

“Şadam ki, “Tbilisi İpək Yolu Forumu” çərçivəsində Ermənistan və Azərbaycanın Baş nazirlərini qəbul etmək imkanım olub ki, biz Cənubi Qafqazın gələcəyi, irimiqyaslı regional layihələr, strateji layihələrin həyata keçirilməsi barədə birgə danışaq. Bu hamımızın ümumi maraqlarına cavab verir.

BMT tribunasından səsləndirdiyim dinc təşəbbüslər çərçivəsində ölkələrimizin rifahı naminə regionda sülhün, sabitliyin və iqtisadi inkişafın təmin edilməsi istiqamətində səylərimizi davam etdirməyə hazırıq”, – İrakli Qaribaşvili yazıb.




Xatırladaq ki, 2021-ci ilin sonunda İ.Qaribaşvili “Sülh qonşuluq təşəbbüsü”nə başlayıb. Baş nazir Azərbaycan və Ermənistana tərəflər arasında qeyri-rəsmi dialoq üçün regional platformanın yaradılmasını təklif edib. 2022-ci ilin iyulunda Tbilisidə Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin ilk görüşü baş tutub.



# POZULMUŞ DEMOQRAFİK TARAZLIQ

Afiq Muxtaroğlu

Qızların evdə qalmışlıq, un çuvalına tay olmuşluq zamanı geridən, keçmişdən baxmaqdadır.

İndi yaşı keçmiş, evlənə bilməmiş oğlanlara, – düzü artıq kişiləşmiş, saç-saqqalına dən düşmüş bu adamlara oğlan demək də doğru deyil , bunu da altını cızaraq söyləyim, – hər addımda rastlaşa bilərik. Elə sağımıza-solumuza baxmamız yetər ki, belə qarımış kişi xeylaqlarını görək.

Beş-on il qabaq biz tərəflərdə beləlırinə dağdan-bağdan birini tapıb evləndirirdilər. O da oğul-uşaq sahibi olurdu. Hətta arvadı ölmüş, dul kişilərin də ucqarlardan ikinci evlilik üçün bir qız-qadın tapması çətin deyildi. İş o yerə çatmışdır ki, 60-70 yaşlı kişi dağ kəndlərindən nəvəsi yaşında biri ilə evlənmək şansına sahib idi. Amma qısa müddət ərzində durum 180 dərəcə dəyişdi, gediş-gəlişin intensivləşməsi, texnoloji yeniliklərin ucqarlara varid olması evlənməyin bu qaynağını blokladı.

Sağ ol səni, nəyi qoyub, nəyi axtarırsan. Artıq botoks erası başlayıb, qadınların, elə kişilərin də ora-burasını dolqu ilə şişirtdikləri zamanın içindəyik. Daha, a çirkin, sən burada dur, gedim gözəl axtarım zamanı deyil. Çirkin yekə burnunu qəddədib incəltdirə bilir, fındıqburun böyütdürüb özünə uyğun buruna sahib olur. O zamandımı ki, ağzın yekəsini yaşmaq, ayağın yekəsini başmaq örtə. İndi zövqə, dəbə uyğun nə bədən üzvü desən sifariş edə bilərsən. Dünən çirkin saydığın bu gün kosmetik əməliyyatdan keçərək, yüz gözəlin, yüz göyçəyin ona həsədlə baxmasına səbəb olur. Sir-sifəti əməliyyatdan sonra o qədər dəyişir ki, doğmaları da tanımaqda çətinlik çəkir.

İndi oğulsan, bədəninə bir ətək maya qoyub, su sonasına dönən birinə yaxın düş. Beləsi heç səni yaxınına buraxırmı? Təhsili, iş yeri də olsa təhsilsiz, fərli bir işi olmayan adamın həmin xanımın yanında qara qəpiklik hörməti olarmı? Belə bir xanımla ömür-gün yoldaşı olmaq şansı sıfıra bərabərləşməzmi?

İndiki qadın az-çox təhsillidir, az-çox dünyagörüşü var. Onu evə dustaq edə bilməzsən. Hüquqlarını bilir. Əl qaldırsan, təhqir etsən səni susdurmağın yolunu da bilir. Səni məhkəmələrdə süründürər, həbsxana küncünə atdırar. Ona görə də ağıllı olmalısan, qismətinə çıxan qadınla adam kimi davranmalısan. Yoxsa Vəli aşından da olarsan, Əli aşından da. Xanımın səni tərk edər, ikinci dəfə evlənmək üçün şansın da qalmaz.

İndi qızların saqqızını oğurlamaq müşkül məsələdir.

İndiki xanımlar karyera dalınca gedir, sənət-peşə öyrənir, cibi pul tanıyır, özü ayaqda durmağa çalışır. Ömrü boyu mətbəxdə biş-düş etməyi, uşaq bezi təmizləməyi, yır-yığışla məşğul olmağı yaxınına da buraxmır. Kişinin, ərin əlinə baxmağı, ondan asılı olmağı da heç düşünmür.

O zaman deyil ki, qadınlar sənə beş-altı uşaq doğsunlar. Və bu uşaqların da mütləq əksəriyyəti oğlan olsun. Dünənə qədər təzə evlənənlərə “yeddi oğullu, bir qızlı” olmağı arzulamırdıqmı? Çox oğulun düşmən çəpəri, düşmən toxmağı sayılması da tarixə qovuşub. Qadını “yeddi oğullu, bir qızlı” olmağa məcbur edə bilməzsən. Yox, qardaş, daha o baban ölüb.

Bu gün oğlanların, kişilərin qız-qadın uğrunda qılınc-qırğına çıxmasının bir səbəbi də bizim oğul düşkünlüyümüz, oğul manyaklığımızdır. İllər öncə selektiv abort yolu ilə qız uşaqlarını ana bətnində məhv etdirərkən, belə bir vəziyyətin yaranacağını, bumeranq effekti ilə geri dönüb, oğul istəyiylə alışıb-yanan qafamıza dəyəcəyini düşünməliydik. Düşünməliydik ki, böyütdüyümüz oğlanların bir qisminə ailə qurmaq üçün qız tapılmayacaq, qız defisiti yaranacaq.

Oğul istəyimizin kəllə-çarxa çıxması ilə belə bir vəziyyət yaratmışıqsa, bunun çarəsini də düşünüb tapmağa borcluyuq. Qız uşaqlarının ana bətnində öldürülməsinə son qoyub, övlad qatilliyindən canımızı qurtarmalı, demoqrafik tarazlığı bərpa etməliyik. Nə deyirsiniz?

## DİN XADİMLƏRİ DƏ MƏCBURİ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRILACAQLAR



Gürcüstanda pravoslav din xadimləri istisna olmaqla bütün digər dini icmaların nümayəndələri həqiqi hərbi xidmətə çağırılacaqlar. Bu məsələ Gürcüstan Parlamentinin qəbul etdiyi yeni Müdafiə Məcəlləsində əksini tapıb.

Parlamentdə keçirilən gərgin və uzun sürən müzakirələrdən sonra yeni Müdafiə Məcəlləsinin layihəsi üçüncü oxunuşda 80 səslə qəbul olunub.

Gürcüstanın bütün müdafiə sahələrini əhatə edəcək sənəddə çağırışçıların hərbi xidməti yeni qaydada təşkil olunacaq. Sənədə əsasən, çağırışçılar 6, 8 və 11 aylıq həqiqi hərbi xidmətə cəlb ediləcəklər.

Qanun layihəsinə görə, din xadimləri də həqiqi hərbi xidmətə cəlb olunacaqlar. Sənəddə deyilir ki, pravoslav din xadimləri istisna olmaqla, bütün digər dini icmaların nümayəndələri məcburi hərbi xidmətə çağırılacaqlar.

Bundan əlavə, “Qirçi” siyasi partiyasının təsis etdiyi “İncil azadlığı”nın tərəfdarları da hərbi xidmətdən yayına bilməyəcəklər.

Məcburi hərbi xidmətin bir il müddətinə təxirə salınması üçün çağırışçı dövlətə 5 min lari vəsait ödəməli olacaq.

Qeyd edək ki, hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyası qanun layihəsini 2022-ci ilin dekabrında parlamentə təqdim edib.

Bu təşəbbüs cəmiyyətdə narazılığa səbəb olub, hətta qanuna qarşı etiraz aksiyaları da keçirilib.

## RAHİB MƏMMƏDOVUN ABİDƏSİNİN AÇILIŞI OLUB



Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində 28 nəfəri xilas edən azərbaycanlı qəhrəman, Ağdamın Mahrızlı kəndində anadan olmuş Rahib Məmmədovun abidəsinin əsaslı təmirdən sonra açılışı, həmçinin ona həsr edilmiş “19 yaşlı xilaskar” adlı sənədli filmin təqdimatı olub.

Oktyabrın 20-si Xobi rayonunda keçirilən mərasimdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və səfirliyin əməkdaşları, Azərbaycan və Türkiyənin Batumidəki konsulları, Gürcüstanın regional dövlət rəsmiləri, azərbaycanlı icmasının nümayəndələri və yerli sakinlər iştirak ediblər.

Mərasimdə çıxış edən səfir Faiq Quliyev Rahib Məmmədovun adının və xatirəsinin hər zaman Gürcüstanda yaşadılacağını bildirib.

“Bizim qəhrəmanlarımız Azərbaycan-Gürcüstan əlaqələrinin təməlinin qoyulmasında böyük rol oynayıblar. Bu gün Rahib Məmmədovun ruhu şaddır, çünki onun doğulduğu Ağdam rayonu artıq azaddır”, – səfir deyib.

Faiq Quliyev Azərbaycan dövlətinin hər zaman Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini, Gürcüstan dövləti və xalqının da 30 il ərzində Azərbaycana hərtərəfli dəstək göstərdiyini diqqətə çatdırıb.

Diplomat Gürcüstan Baş naziri İrakli Qaribaşvilinin vasitəçiliyi ilə Ağdamın minalanmış ərazilərinin xəritəsinin Azərbaycana təhvil verildiyini xatırladıb.

Daha sonra Rahib Məmmədovun Çaladidi kəndindəki Qəhrəmanlar meydanında yerləşən abidəsinin əsaslı təmirdən sonra açılışı olub.

Çaladidi kənd məktəbinin direktoru Nana Kartsidze bildirib ki, sovet illərində kənd məktəbinə Rahib Məmmədovun adı verilib, lakin 90-cı illərin əvvəllərində Gürcüstandakı mürəkkəb vəziyyət zamanı ad götürülüb. Direktor Rahib Məmmədovun adının qaytarılması üçün məktəb kollektivinin əlindən gələni edəcəyini vurğulayıb.

Qeyd edək ki, Rahib Məmmədova həsr edilmiş sənədli film və onun abidəsinin əsaslı təmiri SOCAR-ın Kulevi neft terminalının dəstəyi ilə baş tutub.

Məlumat üçün bildirək ki, Rahib Məmmədov 1967-ci il avqustun 25-də Ağdam rayonunun Mahrızlı kəndində anadan olub. O, 1985-ci ilin noyabr ayında hərbi xidmətə çağırılır. Hərbi xidmətini Gürcustan SSR-də, Batumi şəhəri yaxınlığındakı Xeliçavuri qəsəbəsində yerləşən Hərbi hissədə keçir.

Rahib Məmmədov 20 yaşında ikən, 1987-ci ildə hərbi xidmət keçdiyi Xobi rayonunun Çaladidi kəndində böyük fədakarlıq və qəhrəmanlıq göstərərək, təbii fəlakət zamanı 28 sakini seldən xilas edərək qəhrəmanlıqla həlak olmuşdur.

## GÜRCÜSTAN VƏ AZƏRBAYCAN BAŞ NAZİRLƏRİ BİR SIRA MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİBLƏR



Oktyabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Tbilisiyə işgüzar səfəri çərçivəsində Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Ə.Əsədov paytaxtda keçirilən "Tbilisi İpək Yolu Forumu"na dəvətə görə təşəkkürünü bildirib, regional və qlobal gündəlikdə duran iqtisadi və nəqliyyat məsələlərinin müzakirəsi baxımından tədbirin əhəmiyyətini vurğulayıb.

Görüşdə iki ölkə arasında dövlətlərarası əlaqələrin inkişafından məmnunluq ifadə olunub, Prezident İlham Əliyevin və Baş nazir İrakli Qaribaşvilinin birgə səyləri nəticəsində strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli xarakter aldığı bildirilib.

Tərəflər ticarət-iqtisadi əməkdaşlığı təqdir edərək, cari ilin 9 ayında qarşılıqlı ticarətin həcminin 12 faizdən çox artdığını vurğulayıblar.

İnvestisiya əməkdaşlığının artırılmasının vacibliyi qeyd olunaraq Azərbaycanın Gürcüstanın ən böyük investorlarından biri olduğu məmnunluqla vurğulanıb. Həmçinin ölkəmizdə əlverişli investisiya mühiti barədə məlumat verilib.

Enerji sektoru ikitərəfli əməkdaşlığın əsas prioritetlərindən biri kimi qiymətləndirilib. Bildirilib ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi layihələri həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi tərəqqisinə mühüm töhfə verir.

Azərbaycan və Gürcüstanın birgə həyata keçirdikləri enerji və nəqliyyat layihələrinin Cənubi Qafqazın transformasiyasına xidmət etdiyi, regionun siyasi, iqtisadi, nəqliyyat və enerji xəritəsini dəyişdiyi bildirilib.

Tərəflər hər iki ölkənin ərazilərindən keçən nəqliyyat dəhlizlərinin potensialının genişləndirilməsinə böyük əhəmiyyət verdiklərini təsdiqləyərək Orta Dəhlizin artan əhəmiyyətini xüsusi vurğulayıblar.

Azərbaycan və Gürcüstandakı dəniz limanları Orta Dəhlizin mühüm halqaları kimi qiymətləndirilib. Liman infrastrukturu sahəsində əməkdaşlığın genişləndirilməsinin Orta Dəhlizin inkişafına xidmət edəcəyinə əminlik ifadə olunub.

Eyni zamanda, hər iki ölkənin iştirakı ilə həyata keçirilən "Yaşıl enerji dəhlizi" layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəyi bildirilib.

Ə.Əsədov Gürcüstanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin geniş qeyd edilməsinə görə təşəkkürünü ifadə edib. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ay Gürcüstana işgüzar səfəri çərçivəsində Tbilisidə Ulu Öndərin anadan olmasının 100 illiyinə həsr edilmiş fotosərginin təşkilinin əhəmiyyəti vurğulanıb.

Görüş zamanı iki ölkə arasında həyata keçirilən konkret layihələr nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

## GÜRCÜSTAN VƏ QAZAXISTAN ORTAQ DƏHLİZLƏ BAĞLI SAZİŞ İMZALAYIB



Gürcüstan və Qazaxıstan Orta Dəhlizin inkişafı və səmərəliliyinin artırılması ilə bağlı saziş imzalayıb.

Sənəddə dəhliz üzrə infrastrukturun inkişafı və nəqliyyat daşımalarının səmərəliliyinin artırılması istiqamətində yeni tədbirlər müəyyən edilib. Bu, həmçinin dəmir yolunda təhlükəsizliyi artıracaq, qlobal ticarət və nəqliyyatda Gürcüstan və Qazaxıstanın gələcək mövqelərinə müsbət təsir göstərəcək.

Qeyd edilib ki, 2022-2027-ci illər üçün Yol Xəritəsi 2022-ci il noyabrın 25-də Transxəzər Nəqliyyat Dəhlizinin inkişafı məqsədilə Gürcüstan, Qazaxıstan və Azərbaycan nümayəndələri arasında Aktauda keçirilən görüşdə imzalanıb.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu 2014-cü ilin fevralında Azərbaycan, Qazaxıstan və Gürcüstanın dəniz və dəmir yolu nəqliyyatı sahəsində aparıcı müəssisələrinin iştirakı ilə yaradılıb. Dəhliz marşrutu hazırda Çin sərhədindən başlayaraq, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan vasitəsilə Avropaya uzanır.

2022-ci ilin iyununda Türkiyə, Azərbaycan və Qazaxıstanın xarici işlər nazirləri üçtərəfli və regional əməkdaşlığın artırılması, Xəzər dənizi üzərindən Yaxın Şərq-Qərb dəhlizinin potensialının inkişaf etdirilməsi barədə razılığa gəliblər. Türkiyə Gürcüstanın tranzit marşrutunun bir hissəsi kimi dəhlizə daxil edilməsi təşəbbüsü ilə çıxış edib.

## ƏLİ QANLI "MÜASİR" DÜNYA

Dünyanın və sakinlərinin ötən illərə nisbətən daha da müasirləşdiyini eşidirik, oxuyuruq. Həyatın hər sahəsində – dövlət idarəçiliklərindən tutmuş xırda bir sahibkarın belə işlətdiyi iş yerində, hətta gündəlik yaşantımızda müasirləşməyə doğru gedildiyini əməlli-başlı gözlə görürük və müşahidə edirik. Lakin görünən müasirləşmənin görünməyən üzü də var, yəni jetonun arxa üzü də var, o üzü də yalnız dünyanın məzlum sakinləri görürlər. Əsrlər əvvəl olduğu kimi insanların haqları tapdalanırsa, insanın iradəsi nisbətində seçimi əlindən alınırsa, insanın öz hür iradəsi ilə etdiyi seçimə hörmətlə yanaşılmırsa,  dünyanın gələcəkdəki sakinləri olacaq körpələr amansızca qətlə yetirilirsə, dinindən, dilindən, irqindən asılı olmayaraq dünyanı bir-biri ilə paylaşaraq yaşayan dünya sakinləri öldürülürsə, insanın ən təbii haqqı olan yaşamaq haqqı əlindən alınırsa o dünyada müasirləşməkdən söz gedə bilməz.

Müasirlik adı altında qarşımıza sərgilənən müasirliyi istəmirəm mən. Mən hər kəsin şəxsi hür iradəsi ilə etdiyi seçimi arxasında həyat sürə bildiyi ədalətli dünya istəyirəm. Bu, bütün məzlumların arzusudur, o arzu ki, gerçəkləşmədən hər zaman jetonun arxasında qalır və gözardı edilir.

Dünyada baş verənlərdə haqlı və ya haqsız tərəfi axtarıb, arxasınca düşüb pərəstişkarlıq etməkdənsə, bu şüuru mənimsəyə bilsək dünya hüzura qərq ola bilər. Bu şüur haqlı və ya haqsız demədən insanın yaşamaq haqqına toxunmamaqdır. Yəni insanların yaşamaq haqqı haqlı səbəbdən belə olsa əllərindən alınmamalıdır. Hələ ki "müasir" dünyamızda insan haqlarından bəhs edən, insan haqlarının müdafiəsini özünə məşəl edən qurum və ya qurumlar, fərd və ya cəmiyyət bu qədər haqdan, ədalətdən danışarkən, necə ola bilir ki, məzlumlar zülmün pəncəsində can verircəsinə çırpınarkən, öz ən haqlı olduğu mövqeni qoruyarkən dəstək tapa bilmir, can çəkişərkən uzanan bir əldən tutub ayağa qalxa bilmir, çünki dəstək üçün bir əl yoxdur orada. Sadalanan bütün haqlar ədalət simvolları olan jetonun ön hissəsini bəzəməklə məşğuldur, jetonun arxa hissəsini bəziləri görmür, bəlkə də görmək onlara sərf etmir, ya da görməzdən gəlirlər. Ancaq və ancaq unudulmasın ki, məzlumun ahı yerdə və kimsədə qalmaz, gün gələcək məzlumun üzündən yaşlar silinib təbəssüm məskən salacaq yaşların axdığı o yerlərdə. Ancaq o vaxt məzluma göz yuman jetonun önü ilə məşğul olub, arxası ilə maraqlanmayan zalıma işıq tutan bütün o mənbələr yerlə yeksan olacaq. Əsl o vaxt haqq yerini tapacaq, batil zay olacaq və o gün yaxındır, mütləq gələcək. Unutmayaq ki, müasir dünyanın müasirliyi altında qarşımızda sərgilənən o bər-bəzəklər bizi aldatmaqdan başqa bir fəaliyyət görmür.

Ayıl, ey öz dərdini dünya qədər görən insan oğlu, sənin dünyandan kənarda həqiqi bir dünya var və sən də o dünyada yaşayan bir insansan, iradəni və bütün gücünü topla elə ayıl, o zaman qalxar gözünün və zəkanın önündəki pərdə. Ancaq dünyanı o zaman idrak edə bilərsən. Düşmədən gözündəki qəflət pərdəsi sən heçdən fərqsiz bir məxluqatsan. Sənin, mənim və bizim birliyimiz və diriliyimiz sayəsində dünyamız düzə çıxacaq. Dünyanın dizində taqət qalmadı əsrlərdir sürünməkdən, ancaq yetər, kifayətdir, silkinib ayağa dimdik qalxmağın vədəsi çoxdan gəlib çatmışdır.

**Lamiyə Hacıyeva**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

## 2022-Cİ İLDƏ KVEMO KARTLİDƏ 2301 ŞAGİRD TƏHSİLİNİ DAYANDIRIB



Xalq Müdafiəçisinin Gürcüstanda insan hüquqları və azadlıqlarının müdafiəsi haqqında 2022-ci ilin hesabatı artıq parlamentdə dinlənilib. 376 səhifəlik sənəddə hakimiyyət tərəfindən xüsusi diqqət və vaxtında reaksiya göstərilməsini tələb edən əsas nailiyyətlər, tendensiyalar qeyd olunub. Onlar arasında təhsillə əlaqədar bir çox məsələlər var.

Gürcüstanın Xalq Müdafiəçisi uşaq hüquqlarının vəziyyəti haqqında danışan zaman 2022-ci ildə şagirdin məktəbi tərk etməsi göstəricisinin yenə də yüksək olduğunu deyib. Ombudsman bu istiqamətdə Gürcüstanın Təhsil və Elm Nazirliyinin məktəbi tərk etmək və təhsili dayandırmaqla bağlı statistikanın qeydə alınma məsələsini tənqid edib və onun qaydaya salınmasını tələb edib.

Xalq Müdafiəçisinin məlumatına görə, 2022-2023-cü tədris ilində Gürcüstanda 215 özəl və 2086 ictimai məktəb fəaliyyət göstərib. Buradan 11 məktəb internat məktəbdir. Hesabat dövründə ölkə miqyasında özəl və ictimai ümumtəhsil müəssisələrdə ümumilikdə 631758 şagird qeydə alınıb.

"Doğrudur, ötən illərlə müqayisədə 2022-ci ildə şagird statusunun dayandırılması göstəricisi yüksəkdir. Buradan ən yüksək göstərici Tbilisi (4834), Kvemo Kartli (2301) və Acaranın (1231) payına düşür. Ancaq qeyd etmək lazımdır ki, bu şagirdlər arasında 1831-i başqa ölkənin vətəndaşı idi, 1163 şagird isə məktəbi peşə təhsili müəssisələrində təhsilini davam etdirmək əsası ilə tərk edib", – Xalq Müdafiəçisinin hesabatında qeyd olunub.

Sənədə əsasən, ötən illə müqayisədə hesabat dövründə statusu "ailəsi ilə xaricə getmə" səbəbi ilə dayandırılan şagirdlərin sayı iki dəfə artıb ki, bu da öz növbəsində ölkədəki iqtisadi və sosial problemlərlə sıx bağlı ola bilər.

"Şagird statusunun dayandırılması/xitam verilməsi statistikası, bəzi hallarda, əvvəlki illərdə olduğu kimi, "valideynin ərizəsi" və "davamiyyət sayı" kimi əsaslara istinad edərkən təhsilin dayandırılmasının əsl səbəbi haqqında tam məlumat vermir. Bunu Xalq Müdafiəçisi Aparatının tələbi ilə ölkə üzrə təhsil resurs mərkəzlərindən 2021-2022-ci illərdə şagirdlərin statusunun dayandırılması ilə bağlı təqdim edilmiş ərizələrin surətlərinin qiymətləndirilməsi də təsdiqləyir.

"Məlum olur ki, nazirliyin statistik məlumatlarında göstərilən səbəblərlə yanaşı, təhsildən yayınma səbəbləri, çox vaxt, ailə vəziyyəti, orta təhsil pilləsində təhsilini davam etdirmək istəməməsi, yaşayış yerinin dəyişdirilməsidir. Bundan əlavə, təhsilin dayandırılmasının səbəbi göstərilməyən bir çox belə ərizələr var. Emiqrasiya ilə bağlı iqtisadi vəziyyət, müalicə üçün səyahət və xaricdə təhsilin davam etdirilməsi kimi hallar da müəyyən edilib. Həmçinin birinci sinifdə təhsil alan uşaqların valideynlərinin övladlarının məktəbə hazır olmadığına görə şagird statusunun dayandırılması ilə bağlı ərizə verməsi də vurğulanıb", – hesabatda yazılıb.

Xalq Müdafiəçisi Gürcüstanın təhsil və elm nazirindən valideynlərin və ya qanuni nümayəndələrin təqdim etdiyi ərizələr və sistematik davamiyyət əsasında Gürcüstanın Təhsil və Elm Nazirliyinin hazırladığı məktəbi tərk etmə statistikasını təkmilləşdirməyi və şagird statusunun dayandırılmasının real səbəblərini tələb edir. Bu tələb dəlillərə əsaslanmış təhsili tərk etmənin qarşısını almaq siyasəti aparmaq məqsədi daşıyır.

Xalq Müdafiəçisinin təhsil və elm nazirinə bu istiqamətdə ikinci tələbi belədir: şagird statusunun dayandırılması göstəricisinin artma səbəbləri hərtərəfli qiymətləndirilsin və həm mərkəzi dövlət, həm də yerli özünüidarəetmə orqanları ilə əməkdaşlıq edərək şagirdlərin təhsildən kənarlaşdırılması risklərini azaltmaq üçün gələcək strategiya hazırlansın.

Xalq Müdafiəçisi Aparatının məlumatına görə, 2022-ci ildə insan hüquqlarının müdafiəsi ilə bağlı vəziyyət ciddi şəkildə yaxşılaşmamış, üstəlik bir sıra istiqamətlərdə daha da pisləşmişdir.

## XALQ MÜDAFİƏÇİSİ: 2022-Cİ İLDƏ 815 AZYAŞLI HAMİLƏ QEYDİYYATA ALINIB



2022-ci ildə 815 azyaşlı hamilə qeydiyyata alınıb, azyaşlıların doğuş göstəricisi isə 434-ə çatır. Bu barədə Gürcüstanın Xalq Müdafiəçisinin 2022-ci ilə aid hesabatında yazılıb. Hesabatı oktyabrın 20-də Ombudsman Levan İoseliani parlamentə təqdim edib.

Xalq Müdafiəçisi yazır ki, erkən yaşda nikahdan sonra qızların təhsili dayandırması yenə də problem olaraq qalır və o, Gürcüstanın Təhsil və Elm Nazirliyinə tövsiyə ilə müraciət edib.

"Erkən və uşaq yaşlarında nikahın mənfi təcrübəsi yenidən mühüm problem olaraq qalır. Gürcüstanın İşğal Edilmiş Ərazilərindən Qaçqınlar, Əmək, Sağlamlıq və Sosial Müdafiə Nazirliyinin məlumatına görə, 2022-ci ildə 815 azyaşlı hamilə qeydiyyata alınıb, azyaşlıların doğuş göstəricisi isə 434-ə çatır. Gürcüstanın Daxili İşlər Nazirliyində erkən yaşda nikahla əlaqədar 171 faktla bağlı istintaq başladılıb. 2022-ci ildə Trefikinq Qurbanları və Zərəçəkmişlərə Dövlət Qayğı və Yardım Agentliyi tərəfindən araşdırılmış erkən yaşda nikah hallarının sayı (400 fakt) ötən illərə nisbətən çoxdur. Həmçinin erkən nikaha görə azyaşlı qızların təhsili tərk etməsi də problem olaraq qalır", – Levan İoselianinin hesabatında qeyd edilib.

Sənədə əsasən, Xalq Müdafiəçisi Aparatı tərəfindən araşdırılmış işlərdə erkən yaşda mümkün nikah və ya nişanlandırılma faktları ilə bağlı inzibati icraata başlamaq problemli idi. Azyaşlıların nişanlandırılması faktları ilə bağlı Xalq Müdafiəçisi Aparatına müraciətlərin sayı artıb. Tədqiq olunan hallarda səlahiyyətli orqanlar iddia edilən məcburi nikahı müəyyən edə bilməyiblər. Onlar həmçinin cinayət təşkil etməyən uşaq nikahları hallarına reaksiya verməkdə çətinlik çəkirlər. Araşdırılmış işlər çərçivəsində aidiyyəti qurumlar arasında səmərəli əlaqələndirmə, o cümlədən göndərişlərə cavabdeh olan subyektlər tərəfindən qanunvericiliklə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsi problemli idi.

"Erkən yaşda nikahla yanaşı cinayətlərlə bağlı yaranmış təcrübə nəticəsində cinayətkarlara şərti cəzalar tətbiq edilib ki, bu da qeyd olunan cinayətlərə adekvat reaksiyanı təmin etmir", – Xalq Müdafiəçisi yazır.

Levan İoseliani Gürcüstan Təhsil və Elm Nazirliyinə belə tövsiyələr verib:

- Azyaşlı nikah hallarının aşkar edilməsi, effektiv cavablandırılması və yönləndirilməsi ilə bağlı məktəb rəhbərliyinin nümayəndələrinə vahid əməliyyat prosedurları üçün təlimatlar hazırlansın;
- Məktəb rəhbərliyi əməkdaşları, o cümlədən məktəb direktorları və müəllimlər erkən nikah məsələləri, həmçinin təhsil sistemində çalışanlar üçün prosedurlar, qanuni öhdəliklərlə bağlı sistemli şəkildə hazırlansınlar.

## KİMLƏR 2025-Cİ İLİN 1 YANVARINA QƏDƏR MƏKTƏBDƏ İŞLƏMƏK VƏ KOMPETENSİYASINI TƏSDİQ ETMƏK ÖHDƏLİYİ DAŞIYIR?




Ümumtəhsil haqqında qanunda xüsusi müəllimin peşə və karyera inkişafı sxeminə keçid haqqında qeydə əsasən, xüsusi təcrübəçi müəllim kompetensiyasını təsdiq etmək məqsədilə 2025-ci ilin 1 yanvarına qədər Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş xüsusi müəllim imtahanı verməlidir.

Müəllimlərin hazırlığı üzrə bakalavr-magistratura təhsil proqramı və ya magistratura təhsil proqramını başa vurması nəticəsində magistr, yaxud ona bərabər akademik dərəcə verilmiş (ümumi təhsilin müvafiq pilləsinin fənn/fənlərin tədrisi hüququ qeyd olunmaqla) şəxsin xüsusi təcrübəçi müəllim olaraq işləmək, qeyd olunan vəzifədə işləməyə başladıqdan 2 il müddətində, 2025-ci ilin 1 yanvarından gec olmayaraq Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş xüsusi müəllim imtahanını vermək hüququ var.

Ali təhsili təsdiq edən sənədə əsasən müəllimlik hüququ olan və ya psixologiya üzrə bakalavr və ya terapevt akademik dərəcəsinə malik olan şəxsin xüsusi təcrübəçi müəllim olaraq işləmək, qeyd olunan vəzifədə işləməyə başladıqdan 2 il müddətində, 2025-ci ilin 1 yanvarından gec olmayaraq Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş xüsusi müəllim imtahanını vermək hüququ var.

*Səhifədəki məlumatlar "etaloni.ge" və "edu.aris.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* **Aynurə Əliyeva**

# ƏSİRLİKDƏ OLAN XATİRƏLƏR VƏ YA BORÇALI QIZI XANKƏNDİDƏ



Borçalıya üç ildir gəlmişəm. Müəllim kimi Bakıdan başlayan təhsil və təcrübəmi nəinki işlədiyim məktəbin şagirdləri ilə, hətta digər qonşu məktəb şagirdləri və müəllimləri ilə də bölüşürəm...

Hazırladığım növbəti layihələrin təqdimatından sonra həmişə qayğılı görünüşü ilə yadımda qalan tarix müəllimi Güləbətin müəllim yaxınlaşıb dedi:

– Sənin savad və bacarığını çox bəyənirəm. Mən də cavanlığımda sənin kimi idim.

Yaralı yerdən toxundu deyə tez cavab verdim:

– Müəllim, bəs indi niyə hazırlamırsınız, həm də siz tarixçisiniz, nəinki kimya-biologiya müəllimi.

Adəti üzrə sakit və mülayim gülümsəyərək dedi:

– Çox tədbirlər, yığıncaqlar hazırlamışdım. Daha təqaüdçüyəm, nə həvəsim, nə də hövsələm çatar, tamaşaçıyam.

Beləcə, Güləbətin müəllim təqaüdçü-təcrübəçi müəllim kimi dərsini deyər, hər kəslə sakit, mədəni yola gedər, yola verərdi. Amma onun diqqətini daim hiss edərdim, dəstəyini əsirgəməzdi. Təsadüfən söz düşər, kimsə tələbəlikdən danışanda onun gözləri yol çəkər, amma heç nə danışmazdı. Yalnız o susardı. Diqqətindən heç nə yayınmayan biri kimi bu, mənim nəzərimdən qaçmazdı. Bir gün yeri gəldi soruşdum:

– Müəllim, siz harada tələbə olmusunuz?

– Eh, soruşma, – dedi – mənim xatirələrim əsirlikdədir.

Bu zaman zəng çalındı. Fikrim cavabda qalsa da dərsə getdim. Həmişəki kimi dərsimi keçmək istəsəm də cavab fikrimi yayındırmışdı. Mən sinifdən çıxıb "Müəllimlər otağına" düşəndə artıq Güləbətin müəllim getmişdi. Həftə sonu olduğundan bazar ertəsinə qədər bu sualın girdabında dolaşdım: əsirlikdə olan xatirələr nə deməkdi?!.

Böyük ehtimalla şəxsi həyatına aiddir deyə düşünsəm də "əsir" kəliməsi gündəmin faciəsi olduğundan beynimdən çıxmırdı...

Nəhayət, bazar ertəsi görüşdük. Salamdan sonra "sizlə danışmaq istəyirəm" deyəndə gülümsədi. "Bildim ki, səni düşündürdü" dedi.

Biz dərsdən sonra kirimişcə məktəbimizin yaşından böyük tut ağacının neçə on illərə şahid kölgəsindəki skamyada oturduq. Mən danışdırdım, Güləbətin müəllim danışdı. Kövrək xatirələr, titrək səs, yol çəkən baxışlar... o danışdı, mən dinlədim. Sonda hər ikimiz susduq. Sükutu özü pozdu:

– İndi bildinmi niyə hamı tələbəlikdən, institutdan danışanda mən susuram, çünki mənim xatirələrim də ya şəhiddir, ya əsir.

Gözlərim dolmuşdu, bircə kəlimə dedim: "Film kimi..."

İndi bu filmdən danışım.

Gürcüstanda ilk türk (tatar) dilli məktəb 1847-ci ildə yaradılıb yazırlar. 1875-ci ildə çarın tapşırığı ilə böyük, mərkəzləşmiş kəndlərdə icma məktəbləri təşkil olunur. Borçalı qəzasında, Sarvan kəndi yaxınlığında Qızılhacılı məktəbi yaradılır və Nəriman Nərimanov 1890-cı ildə Qızılhacılı məktəbində rus dili müəllimi işləyir. Şura hökumətindən sonra bütün məktəblər üçün kadrlar əvvəllər Borçalı Türk Pedaqoji Texnikumu (1934), Qazax Müəllimlər İnstitutu, Tiflis Pedaqoji İnstitutu, eyni zamanda Gəncə və Bakı institut və universitetinin məzunları 235 azərbaycandilli məktəblərdə işləyirdilər. Bu 2016-ci ilə qədər davam etdi. Azərbaycan Respublikası, "SOCAR"-ın dəstəyi ilə



"1+4" proqramının təşkilindən sonra artıq gənclərimiz Tbilisi universitetlərinin məzunu kimi məktəblərdə işlə təmin olunurlar.

1890-dan bu günə qədər neçə min müəllim, demək olar ki, yuxarıda adını çəkdiyim ali təhsil ocaqlarının məzunlarıdırlar. Bütün Gürcüstan üzrə yeganə bir məzun da var, bəlkə mənim kimi heç kimin ağlına gəlməz ki, Marneuli rayonunda, Qaçağan 2 saylı məktəbin tarix müəllimi Güləbətin müəllim Xankəndi Pedaqoji İnstitutunun məzunudur. Bəli, Xankəndi.

Etiraf edim ki, oxuduğum kitablardan, baxdığım filmlərdən, uşaqlığımı yaşadığım sovetlər ölkəsi və onun qayğısız, bəxtəvər tələbə həyatı tələbə olmaq arzumu formalaşdırmışdı. Güləbətin müəllimi dinləyəndə isə, bax, o əsərlərdən oxuduğum həyatı canlı dinləyirdim, ona görə "film kimi" dedim.

İndi filmi yazım.

1980-ci il, Borçalı, Qaçağan kəndi... Hər dövrün öz dəbdəbəsi, eyni zamanda, hər elin də öz yazılmamış qanunları vardı. 70, 80-ci illər bu eldə sanki bir oxumaq dəbi yaşanmışdır. Hər il məzun olan şagirdlərin, demək olar ki, 80-90 faizi müxtəlif texnikum və institutlara gedərdilər. Nəinki oxumayanlara, hətta övladını oxutmayan ailələrə belə camaat qəribə baxırdı – geridə qalmışlıq əlaməti kimi. Odur ki, hamı çalışırdı, S.Vurğun demiş, "Baxıram Leninin əsərlərinə cərgədən geridə qalmamaq üçün".

Güləbətin də qonşularına baba yurduna yayda qonaq gələn gənc tələbə qız İradə ilə dostlaşmışdı. Güləbətin üçün Qarabağ, Stepanakert adı çox uzaq görünsə də İradənin danışdığı tələbə dünyası ona çox yaxın görünürdü. Qarşısına məqsəd qoydu: mən də İradə oxuduğu institutda oxuyacam. Hamı Bakıya, Gəncəyə gedir, mən dağlar qoynuna gedəcəm. Evdə əvvəl zarafat qəbul etdilərsə də, sonra ciddiyəti anladılar. Valideynləri narazılıq etsələr də İradənin valideynləri, – Özümüz də oradayıq, qonşu deyilikmi, gözümüz üstə olacaq, – dedilər.

Beləliklə, gənc Güləbətin 1969-cu ildə Bakıdakı Pedaqoji İnstitutun filialı kimi yaradılıb, 1973-cü ildən müstəqil fəaliyyət göstərən Stepanakert Beynəlmiləl Pedaqoji İnstitutunun Tarix və ictimaiyyət fakültəsinə qəbul olundu. Əsl tələbə həyatı yaşadı Güləbətin müəllim, çünki Bakıda, Gəncədə kənddən tələbələr çox idi. Bəzən bir fakültədə 2-3 nəfər oxuyurdular. Kənddə 3 məktəb vardı, 3-4 paralel sinif vardı və üstəgəl, oxumaq dəbi, amma Xankəndidə nəinki tələbə, heç gürcüstanlılar yox idi. Yalnız İradənin anası vardı, hansı ki, təyinatla gedib işləmiş və orada da ailə qurmuşdu. Bütün tələbələr Aşağı və Yuxarı Qarabağın rayon və kəndlərinin gəncləri idilər.

İnstitutda erməni, rus, Azərbaycan bölmələri fəaliyyət göstərirdi. Hər üç sektor bir-biri ilə rəqabətdə idi. Bu da daim məsuliyyət və nailiyyətə gətirib çıxarırdı.

Qarabağlılar içərisində Güləbətin yeganə gürcüstanlı idi. Bu da bütün institutda diqqət çəkirdi. Hamını maraqlandırırdı – uzaq Gürcüstandan Qarabağa gələn bir tələbə kimi. İnternetsiz bir zamanda buralar qarabağlılar üçün, əlbəttə, yad, kənar bir ərazi idi, hətta bəziləri gürcü kimi başa düşürdülər. Müəllimlər isə xüsusi hörmətlə rəftar edər, bu çalışqan, tərbiyəli tələbəyə zarafatla Çariça Tamara deyərdilər. Bütün institut, bütün fakültələr bu qızı tanıyır, xüsusi hörmət edirdilər. Gürcüstanda Azərbaycan tarixi kursu keçilməmişdir deyə Güləbətin özü az vaxt ərzində bütün Azərbaycan tarixi kursunu özəl oxudu və tələbə yoldaşları ilə eyni səviyyəyə çatdı. Bu çalışqanlığı da müəllimlərin gözündə bu qərib tələbəni daha da ucaltdı.

Güləbətinin ən şirin xatirələri tələbə yoldaşları ilə, institutla səyahətləri idi. Şuşaya, Cıdır Düzünə, Xuraman qayasına, İsa bulağına, Daşaltı adlanan gözəl mənzərə-



li kəndə gəzintiyə getdilər. Arxeologiyadan Azıx mağarasında şəkillər xatirələri bir daha yaşadırdı.

"Oqonyok" adlandırılan tədbirlər hazırlanardı hər bayramda, əyləncə ilə bərabər müsabiqələr olardı. Güləbətin bütün yarışlarda iştirak edərdi. O dövrün qaydaları ilə paradlar, üzüm yığımları, pambıq yığımları isə bir başqa idi... Bir sözlə, tələbə adına Sovet dövründə müsbət nə vardısa Güləbətin onu yaşadı.

Qrupda 25 tələbə vardı, yaxın rayonlardan olan qızlar hər ailələrinə gedib-qayıdanda mütləq qərib tələbəyə xüsusi boxça gətirərdilər. Güləbətin də borclu qalmazdı. Qarabağın qarlı, çovgunlu yollarıyla qışı gəlməsə də, yayı kəndə gəlir və Tbilisiyə gedər, tələbə dostlarına maraqlı, orada olmayan, istədikləri hədiyyələri alardı. Sevinc Kərimova adlı qızla Xankəndidə kirayədə yaşayırdı. Hətta bir dəfə Ağdama onlara qonaq da getmişdir...

Son kursu təcrübə dərsləriylə başa vurdu. Şuşada Ü.Hacıbəyov adına 4 saylı məktəbdə, 5 saylı internat məktəbdə və Xocalı kənd məktəbində təcrübə dərsləri keçdi...

Nəhayət, beş illik Qarabağ həyatı bir ömür unutmayacağı ömrünün ən qayğısız, gözəl, əvəzolunmaz xatirələriylə başa çatdı. Kəndinə döndü. Müəllim işlədi. Ailə qurdu. Hələ o xatirələrin istisi soyumamışdır. Şirin-şirin, kövrək-kövrək danışardı həyat yoldaşı Arifə. O da ali təhsilli mühəndis idi, dinləyər, anlayar, gülümsəyərək deyərdi:

– Biz hesab edirdik, sən dağda oxuyursan, biz şəhərdə. Sən əsl tələbə olubsan ki. Qoy bir az uşaqlar böyüsün gedərik Qarabağa. Sən xatirələrinə qovuşarsan, mən də Vaqifin, Üzeyirin vətənini görərəm...

Güləbətin Qarabağda o qədər qayğı, hörmət görmüşdür ki, Qarabağa – məzun kimi qayıtdığı, ömrünün gənclik karvanının keçdiyi o müqəddəs məkana ailəsi, iki oğlu ilə gedəcəyi, tələbə yoldaşları ilə görüşəcəyi günü həsrətlə gözləyirdi. Müəllimlərini ziyarət edəcək, sizə minnətdaram, öyrətdiklərinizi kəndimin uşaqlarına aşılayıram, Azərbaycan tarixini sizdən öyrəndim deyəcəkdi. Beş il evində kirayədə yaşadığı ailəyə nələr aparacaqdı – Borçalı nemətləri, hə, bir də, Tiflisə gedib onların xoşladığı suvenirləri alar... Özü də öz maşınımızla gedəcəyik. Eh, bircə uşaqlar bir az tez böyüyərdi. Bir-iki il də keçsəydi...

Beləcə günləri sayarkən dünya yaman çalxalandı, qaranlıq buludlar toqquşdu, çaxan ildırım Güləbətinin həvəslə gözlədiyi, maraqla danışdığı xatirələrinin məskəninə düşdü... Qarabağ münaqişəsi... Birinci Qarabağ müharibəsinə aparan yol...

Məlum siyası münaqişə-müharibəni millət kimi hamı izləyirdi. Bu izləyənlər içində Güləbətin tamam fərqli idi. O, həyacanı, sarsıntını qarabağlılar kimi yaşayırdı. Beş il doğmalaşdığı, havasını udub, suyunu içdiyi, çörəyini yediyi ikinci Vətəninin ağrısıyla yaşayırdı. Ən dəhşətlisi isə beş il kirayədə yaşadığı, doğması kimi alışdığı evin sakinləri ilə birlikdə partladılması oldu... Təsadüfən xəbərlərdə gördüyü bu mənzərə həyatının ilk acı xəbəri idi. Artıq televizorda müharibə xəbərlərinə baxa bilmirdi, çünki hər baxanda bir tanış sifət görürdü.

Sonra xatirələr şəhəri işğal olundu. Bununla da Güləbətinin Qarabağ xatirələri dondu. Ağızdolusu danışdığı, qürurlandığı, bir gün mütləq gedəcəyi o gözəl diyar işğal olunmuşdur. Beləcə xatirələr də həmin gündən əsir oldu, Qarabağ kimi...

Bax belə. Güləbətin müəllimin xatirələri 30 illik əsirlikdən DƏMİR YUMRUQLA azad olundu.

Mən sizi təbrik edirəm, Güləbətin müəllim! Oğlanlarınızla getmək istədiyiniz Qarabağa indi nəvələrinizlə gedərsiniz.

İnşallah, əminəm ki, sizin məzun olduğunuz Xankəndi institutu yaxınlarda QARABAĞ UNUVERSİTETİ olacaq!

# KƏNDİN ASTAGƏLLİYİ, ŞƏHƏRİN QAÇHAQAÇI



Biz uşaq olarkən həmişə kəndə gedəndə kənddəki nənələr soruşardı: kənd yaxşıdır, yoxsa şəhər?

Əslində, şəhərdə yaşamazdıq, amma adı var idi, necə olmasa da Qardabani şəhər sayılırdı. Şəhər adlı kənd deyərdi müəllimim həmişə.

Kəndin də, şəhərin də özünə görə üstün və çatışmayan cəhətləri var. Kənd adətən həmişə gözəl təbiəti, saf suyu, təmiz havasıyla fərqlilik qazanır. Burada həyat təbiidir. İnsanlar təbiətlə iç-içə yaşayır, heyvanlarla ünsiyyətdə olur, meşədə, dağda, çay kənarında gəzirlər. Hər səhər quşların cəh-cəhi ilə, günəşin parlaq şüaları ilə günə başlayırlar. Bir sözlə, günə ən gözəl necə başlamaq lazımdırsa elə başlayırlar.

Zəhmətkeş kəndlilər öz əlləri ilə, alın tərləri ilə təbii, sağlam meyvə-tərəvəz yetişdirirlər. Saxladıqları, bəslədikləri heyvanlardan ət, süd, bal, yumurta əldə edirlər.

Kənddə hamı üçün gün çox erkəndən – saat 5-dən-6-dan başlayır. Səhər tezdən görüləcək işləri görürlər. Toyuqlar yemlənir, inəklər sağılır, sonra analar uşaqlarını məktəbə hazırlayıb yola salırlar. Kənddə gün nə qədər erkən başlasa da orada yaşayan insanlar üçün zaman çox tez gəlib keçir. İnternet, böyük ticarət mərkəzləri, kinoteatrlar, parklar, kafelər olmamasına baxmayaraq, onlar bütün gün heç darıxmırlar. Çünki onlar qonşuluq, qohumluq münasibətləri saxlayırlar, bir-birlərinin evinə qonaq gedib-gəlirlər, söhbətlər edirlər. Uşaqlar bağçada oyunlar oynayırlar, böyüklər nərd, domino oynayırlar, bu əsnada söhbətlər edirlər.

Bəs nəyə görə kənd həyatı bu qədər gözəl ikən insanlar şəhərlərə qaçırlar?

Şəhəri daha çox biz gənclər sevirik. Bunun müxtəlif səbəbləri var. Bütün şəhər kino, teatr, mağaza, supermarket, bazar, bank, universitet, idman salonları, xəstəxanalar, disko-barlar, parklar və s. əyləncə mərkəzləri ilə doludur. Gənclər parklarda gəzməyi, müxtəlif əylənə biləcəkləri yerlərə getməyi, maraqlarını cəlb edən yerləri kəşf etməyi sevirlər. Burada həyat darıxdırıcı keçmir. Lakin bu maraq yaxşı iş, yüksək də qazanc tələb edir. Küçəyə çıxılan hər dəqiqə pulla ölçülür.

Şəhərdə gün təxminən saat 8-9 radələrində başlayır. Bu vaxtdan etibarən insanlar küçələrə axın edirlər, avtomobillərin siqnal səsləri bir-birinə qarışır. Metro üçün, avtobus üçün sıraya düzülürlər, giriş və çıxışda bu qədər insanın içindən sağ-salamat çıxarammı deyə hər dəfə düşünməli olursan. İnsanlar hər gün eyni, standart həyatı yaşayırlar.

Səhər hər kəsin sadəcə tək problemi işə vaxtında çatmaq olur. Hər kəs bir qaçhaqaç vəziyyətində olur, sanki əllərindən nələrinisə alıb aparırlar, onun arxasınca qaçırlar, ya da kimsə qovalayır, heç nə düşünmədən yolu gedib bitirməlidirlər. Hamının üz ifadəsi bir-birinə bənzəyir: donuq, durğun, yorğun. Baxanda anlayırsan ki, nəsə problemini, dərdini düşünür; kiminsə pul problemi, kiminsə ailə problemi, kiminsə imtahan dərdi, kiminsə xəstəlik dərdi və daha kim bilir hansı dərdləri, nə problemləri var. Hamının dərdi özünə böyükdür.

Burada heç kəs heç bir kəsə rəy bildirmir və ya nə bilim, tanımadıqlarına “ay qızım, haradan gəlirsən” suallarını vermirlər. Kiminsə geyminə, danışığına, baxışına, hərəkətinə, duruşuna söz deməyi özlərinə borc bilmirlər. Sadəcə, ətraflarına belə baxmadan ən sürətli şəkildə səhər çıxdıqları evlərinə çatmağa çalışırlar...

Bir müddətdir artıq burada yaşayırıq. İnsanları hər gün müşahidə edirəm. Bura gələndən heç bir qonşunu görməmişik. Bildirdiyim kimi, heç kəs başqasının işiylə maraqlanmır. Ailələrinə yetəri qədər ayıracaq vaxt tapırlarmı, orası belə müəmmadır. Bəzi ailələrdə ailə üzvləri bir-birlərini görə bilmirlər, biri işdən gələndə, digəri işə gedir, valideyn evə gələndə, uşaq yatmış olur.

Qohumluq əlaqələri isə yalnız bacı-qardaşdan ibarət olur. Onlarla da xeyir işdən şər işə bir yerə toplaşırlar. Kəndlərdə “dayım arvadının bacısı qızının kürəkəninin imkanı yaxşıdır, deyəsən təzə maşın alıb” söhbətləri gedərkən, burada insanların bir-birindən xəbəri olmur.

Düzdür, şəhər həyatı dünya görüşünü artırmaq, təhsil, yaxşı gəlirli iş, karyera kimi insana yaxşı həyat üçün lazımlı olan hər şeyi verir. İstədəyimiz hər şeyi etmək üçün çox sayda imkanları var. Amma bunun üçün çoxlu çalışmaq, qurbanlar vermək lazım gəlir. Ən əsası da ən böyük sərvətimiz olan sağlamlığımızı qurban vermək tələb olunur. Şəhərin izdihamlı küçələrində gözlə görmədiyimiz, xəbərsiz olaraq çirkli havasını uduruq. Amma yaxşı həyatı bundan üstün tutanlar var. Ən çox da gənclər. İstədiklərini əldə etdikdən sonra, yaxşı pul qazandıqdan sonra kəndə qayıdacaqlarını deyirlər. Amma bu günə kimi bu sözü deyənlər dedikləri yerdə qalıb. Vaxt gəlib keçir, bir də ayılırlar ki, qocalıblar...

Şəhər həyatı maraqlıdır, lakin stresli və çox bahalıdır, kənd həyatı isə sadədir, təbiidir, sağlamdır, hər şey əlinin altında olur.

Yaşamaq istədiyimiz həyatı gənclik dövrümüzdə seçirik. Hər kəs öz seçimini düzgün etsə, sonda həyatından şikayətlənməz. Nəyi nəyə qurban verdiyimizi düşünərək seçim etsək, yanılmarıq.

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# SONRAKI PEŞMANÇILIQ FAYDA VERMƏZ



Hər bir ölkənin gerbi, bayrağı, dili fərqli olduğu kimi insanların da həyata baxışı, geyim tərzi müxtəlifdir. Biz gənclərin düşüncələri də belədir. Bizim hər bir davranışımız bir-birindən çox fərqlənir. Əlbəttə ki, hər kəs üçün öz fikri, düşüncəsi daha önəmlidir. Amma biz gənclər yaşlı nəslin geyim tərzini, davranışlarını bəyənmirik. Həmçinin yaşlı nəsil də biz gənclərin fikirlərini öz yaşadıqları zəmanəyə görə dəyərləndirirlər. Amma dəyişən tək biz deyilik. Həftələr, aylar, illər keçdikcə hər şey dəyişir. Hər gün yeni bir şey inkişaf edir. Yeni model maşınlar, telefonlar, yeni geyim tərzləri yaradılır. Bir sözlə, insan yaşadığı mühitdə dəyişikliklər baş verdiyi üçün dəyişir.

Günümüzdə ən dəbdə olan geyimlər boş geyimlər, cırıq şalvarlar, gödək libaslar və s. geyimlərdir. Bu geyimləri bəzilərimiz çox sevərək, özümü rahat hiss etdiyimiz üçün geyinirik. Düzdür, bəzilərimiz sırf dəbdə olduğu üçün geyinir. Yəni bu bizim öz istəyimizdən asılıdır. Əgər istəməsək geyinmərik və bu dəbdə olan geyimlərin hər biri biz geyindiyimiz üçün dəbdədir. Məsələ təkcə geyimdə deyil. İstər telefon, istərsə də maşın olsun, fərq etmir. Nəticədə onları dəbli göstərən onun istifadəçiləri – biz insanlarıq.

Nənəm, babam həmişə deyirlər: “Bizim zamanımızda belə deyildi. Zamana çox dəyişib. Bizə anamız, atamız nə alırdılar, onu da geyinirdik. Heç bir söz deyə bilmirdik. Amma indi uşaq nə deyir, o da olur”. Bəzən nənə-babamın fikirlərinə qatılıram. Çünki çox vaxt biz gənclər xoşumuza gələməyən, sırf dəbdə olduğu üçün aldığımız, aldırdığımız geyimlərin çoxunu geyinmirik də.

Qrup yoldaşlarımla gəzmək üçün planlar etmişdik. Biz az gəzdikdən sonra yeni açılmış mağazanı gördükdə maraqlanıb göz gəzdirmək üçün ora girdik. Hər şey çox gözəl, ən dəbdə olan bahalı geyimlər var idi. Hər şey çox möhtəşəm, rəngarəng görünsə də, diqqətimizi o geyimlərdən çox mağazadakı qızın anası ilə mübahisəsi çəkdi. Qızı biz universitetdən tanıyırdıq. Yaxınlaşıb salam vermək istədik. Amma anası ilə mübahisəsini gördükdə yaxınlaşa bilmədik. O artıq ali təhsil alır, deməli nələrisə dərk edə bilir. Ən azından biz belə düşünürdük. Və belə hərəkət edəcəyi heç ağlımıza belə gəlməzdi. Belə ki, qız vitrində gördüyü libası istəyirdi. Amma anası qızının xasiyyətini bildiyi üçün almamaqda qərarlı idi. Hər zaman qızı belə hərəkət edirmiş. Hər yeni satışa çıxan geyimləri alır, amma heç birini geyinmir. Çünki o, klassik geyimləri daha çox sevir. Onun geyiminə baxdıqda da bu, aydın görünürdü. O libası almaqda məqsədi isə ən yaxın rəfiqəsinin bu mağazanın yeni açıldığını və orada gördüyü həmin libası çox bəyəndiyini, onu alacağını deməsi olub. Yəni rəfiqəsi almasın deyə o qədər pulu boşu-boşuna xərclətmək üçün anasına demədiyi söz qalmadı: “Sən məni sevmirsən, məni övladlıq götürübsən, ona görə almırsan. Sənin kimi ana olmaqdansa heç olmasın. Bir libası almağa belə gücün çatmırsa, nə üçün yaşayırsan?! Get öl!” Anasına bu kimi qəlb qırıcı sözlər dedi.

Bir libas üçün dəyərmi qəlb qırmağa? Məncə, o yetkinlik yaşına çatmış olmasına baxmayaraq yenə də heç nəyi dərk edə bilmir. Əgər dərk etsəydi ki, mən düz etmirəm, o mənim ən yaxın rəfiqəmdir, axı mən necə ona inad, o almasın deyə gedib həmin libası almalıyam. Ən əsası da anasına belə davranması...

Atalarımızın da dediyi kimi: “Nə əkərsən, onu da biçərsən”. Sabah o da ana olacaq, o zaman uşağı onunla o bu gün anası ilə davrandığı kimi davransa, nə edəcək. Bəlkə də elə onda peşman olacaq. Amma gec olacaq. Nə olsun ki, anasıdır. Ana da can deyilmi. Anam hər zaman mənə belə deyir: “Çalış heç kimin qəlbini qırma. Sonra hər şey göründüyü kimi olan deyil. Məsələn, stəkanı əlindən yerə saldın və qırıldı. Gətirib hər bir parçasını birləşdirdin. Baxanda görürsən heç nə bilinmir, əvvəlki kimi görsənir. Amma o stəkana su tökdükdə görürsən, artıq əvvəlki kimi deyil”.

Mən hər zaman çalışıram ki, anamın dediyi kimi, qəlb qırmayım, sonradan peşman olmayım. Çalışıram ki, mən də mağazadakı qız kimi bir libas və ya belə şeylər üçün qəlb qırmayım. Ən əsası da, valideynlərimə qarşı davranışlarımı, əslində kim olduğumu unutmayım. Hər şeyi gec olmamış zamanında etmək lazımdır. Axı sonrakı peşmançılıq fayda verməz.

**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE



*(əvvəli ötən sayda)*

İndi Koroğlunun igidliyi necə anladığını xatırlayaq: hər şeydən öncə, misri qılıncı əvəssiz olaraq çalmaq, sonra nizə və oxu dəhşətli dərəcədə dəqiqliklə hədəfə vurmaq, gürzdən ustalıqla istifadə etmək... Və əgər bu növlər kəsiyində qalib müəyyən edilmirsə, güləş başlayır. Eyni zamanda igidin ləyaqətini taclandıran cəngavərin həyat və mübarizəsində mühüm rol oynayan onun kəhəridir. Müəyyən olunduğu kimi, Orta əsrlərin Azərbaycan və ümumiyyətlə, yaxşı igidin döyüşmək ənənəsi və onun həyata keçirilməsi qaydası belədir. Elə burada artıq yuxarıda müzakirə olunan epizodu xatırlasaq artıq olmaz. Güclü adamı uşağın da tüfəngdən istifadə etməklə insanı öldürə bilməsinə əmin olandan sonra o, Koroğluluğundan və yaxud igidliyindən əl çəkir: "İndi namərd dünyası, bic əyyamıdır. Bundan sonra igidlik bir qara qəpiyə dəyməz. Mən bu gündən Koroğluluğu yerə qoyuram" (Bax: "Koroğlu", səh. 669; "ქოროღლი", səh. 691). Başqa yerdə yenə vurğulayır: "İndi gərək laçınlar, tərlanlar sara baş əyə. Bu gündən belə dünya namərd dünyasıdır" (Bax: "Koroğlu", səh. 673; "ქოროღლი", səh. 695).

Koroğlunun inancının maraqlı tərəflərindən biri də odur ki, qaçırtmaq və mübarizə ilə ələ keçirməyi igidlik hesab etdiyi bir vaxtda, o, qızı gizli, xəlvəti götürüb qaçırtmağı namərdlik hesab edir. Məhz elə bu əlamət ilə o, quldurluğu və oğurluğu fəqləndirir. Birincini o, igidlik hesab edir, ikincini isə namərdlik hesab edir. Bunların bir-birindən radikal şəkildə fərqi odur ki, birinci – quldurluq mübarizə ilə əldə olunur, mübariz düşməni məğlubiyyətə uğradır və onun mülkünə yiyələnir; ikinci – oğurluq isə gizli, it kimi davranışdır. Buna görə də oğurluğun nakşilik olduğu, kişinin adını batırdığı bir vaxtda Koroğlunun etdiyi şan-şöhrətli kişilikdir (Bax: "Koroğlu", səh. 671; "ქოროღლი", səh. 692). Bu eposun əxlaqi-etiq inancı belədir ki, bununla da fəaliyyətdə olan qəhrəmanın və ümumiyyətlə, insanın həyatının, fəaliyyətinin qaydası belədir. Mübarizə ilə ədalətsiz bəyləri və paşaları məğlub edən bu cür davranışı bütün aləm bilir. Xalqlar tərəfindən bəyənilən qürurvericidir. Bu əxlaq cəhətdən və estetik baxımdan da valehedicidir. Oğurluq isə gizli şəkildə zülmətdə vəhşicəsinə törədilən əxlaqsızlıqdır, nifrət olunasıdır. Düşündürücü haldır ki, bugünkü oxucu bu baxış dairəsini tamamilə qəbul etmir. Lakin, birincisi, istənilən bədii əsər hər şeydən öncə öz dövrünün oxucusu üçün yazılır və ikincisi də, bu baxış dairəsi o haqsızlıq və zülm boyunduruğunu daşıyan, müxənnətliyi deyil, eləcə də zorakılığa qarşı bəyan olunan mübarizəni igidlik kimi qəbul edən xalq tərəfindən yaradılıb.

Sonda Koroğlunun igidliyinin rəmzi-əlaməti olaraq ildırım parçası – misri qılıncı göstərmək olar ki, bunun da qabağına heç nə dura bilmir və onun vasitəsilə də xanların, bəylərin, paşaların qanını axıdır və müxənnətlərə, nakişilərə ədaləti göstərir. Və Qırat – onun bütün savaş və qələbələrinin iştirakçısı, həmfikri olan at. Buna görə də belindən "misri qılıncı" uzaq qoymur və ona ən dəyərli bir xəzinə kimi yanaşır. Lakin Qırata qarşı xüsusi sevgi, dostluq hissini və bəyənməni göstərir. Ümumiyyətlə, azərbaycanlı igidin həyat və fəaliyyətində, savaşında at böyük yer tutur ki, buna qarşı da insanın münasibəti yüksək həssaslıqla fərqlənirdi. Buna görə də yad adama atı tapşırmaq pislik olaraq hesab edilmişdir: "İgidin atını apardılar, ya arvadını – ikisi də namusdan sayılır" (Bax: "Koroğlu", səh. 284; "ქოროღლი", səh. 324). Dəlilər Düratı oğurlanan Koroğlunu məzəmmət belə edirlər və bu məzəmmət nəinki təsadüfi atılan kəlmədir, eləcə də mübariz igidin ata qarşı necə bir münasibəti olduğunu həddindən artıq gözəl şəkildə bizə təqdim edir. Qırat və Koroğlunun münasibətləri daha da ucaldılıb, o, qəhrəmanın həyatına bərabərdir. Buna görə də Koroğlu Qıratını tərif edir, onu şanlandırır: "Qırat mənim iki gözüm, belə dərdə necə dözüm" (Bax: "Koroğlu", səh. 287; "ქოროღლი", səh. 327). Sonra onu əmin edir ki, onun qiyməti yoxdur və səksən min kotana, səksən min cütə də verilməz (Bax: "Koroğlu", səh. 288; "ქოროღლი", səh. 328). Sonra xəbərdarlıq edir ki, Qırata yaxşı baxsın: "At ki var, igidin yaraşığıdır" (Bax: "Koroğlu", səh. 289; "ქოროღლი", səh. 329). Bu sətir rədif olaraq uzun qoşmada təkrarlanır. Ona görə təkrarlanır ki, Həmzə də, camaat da atın dostluğunu dərk etsin. Nəhayət, Koroğlu Hasan paşaya hədə dolu sifarişini də göndərir:

***"Get de o paşaya, köç eləməsin,***
***Qıratı gətirrəm, qala qoymaram!***
***Qoşunun qıraram, varın talaram,***
***İlxısında bir day qala qoymaram!"*** (Bax: "Koroğlu", səh. 290; "ქოროღლი", səh. 331).

Sonda Koroğlu yenə özünü məzəmmət edir ki, Qırata baxa bilmədi, onun itirilməsi sinəsinə dağ, düyün vurdu. Gedib Çənlibeldə dəlilərə nə desin və nəhayət, özü barədə hökm çıxarır: "Öl, burda qal, Koroğlu!" (Bax: "Koroğlu", səh. 290; "ქოროღლი", səh. 331). Koroğlunun bu mahnılarını ona görə gətirdim ki, azərbaycanlı, ümumiyyətlə, qafqazlı igid üçün qardaş hesab etdiyi, xeyirdə də, şərdə də onun yanında olduğu atın nə qədər qiymətli olduğunu daha aydın verə bilim.

Son üçün "Koroğlu" qəhrəmanlıq eposunun süjet kərgahını orda-burda gözəlləşdirən müdrik xalq tövsiyələrini, atalar sözlərini, idiomatik kəlmələri gətirmək istəyirəm. Onlardan bəziləri budur (Bax: "Koroğlu", səh. 230; "ქოროღლი", səh. 252):

- İgidin başı qalda gərək. Bərkə-boşa düşsə pis olmaz (Bax: "Koroğlu", səh. 230; "ქოროღლი", səh. 252);
- O, necə deyərlər, şeytana papaq tikib təpəsinə də deşik qoyardı (Bax: "Koroğlu", səh. 278; "ქოროღლი", səh. 317);
- İti görüm, qurdu görüm, onu görməyim (Bax: "Koroğlu", səh. 278; "ქოროღლი", səh. 317);
- Amma elə çalır, elə oxuyur ki, göydə gedən quşlar da az qalır qanad saxlayıb tamaşaya dursun (Bax: "Koroğlu", səh. 295; "ქოროღლი", səh. 337);
- Qoy indi beş özündən deyəndə, on da bizdən desin (Bax: "Koroğlu", səh. 305; "ქოროღლი", səh. 347);
- Hasan paşa dilini saldı işə. Min yerdən min bəhanə gətirdi. Ancaq heç biri bir quruşa dəymədi (Bax: "Koroğlu", səh. 641; "ქოროღლი", səh. 653);
- Hər nə qədər desən, qurd oğlu qurddur. Əlimə düşmüşkən gərək tədbirini eləyəydim (Bax: "Koroğlu", səh. 673; "ქოროღლი", səh. 694) və sair.

Aydındır ki, gətirilən çıxarışlar bu qəhrəmanlıq eposunun xalq düşüncə layını tamamilə əks etdirmir. Lakin gətirilənlər də bu xalq eposunun kətanının əks olunması üsulu və xüsusiyyətləri barədə bizdə müəyyən fikir yaratmaq üçün kifayətdir.

Düşünürəm ki, yuxarıda müzakirə olunan material mənə nəticəyə gəlməyə ixtiyar verir ki, təhlil olunan eposun nəsr səviyyəsi bədiilik baxımından səciyyəvidir və o, öz süjet inkişafının müxtəlif növlülüyü ilə və rəngkarlığın müxtəlif çalarları ilə fərqlənir. Lakin unutmamalıyıq ki, "Koroğlu" nəsrin bədii memarlığı və poeziyanın birgəliyi ilə yaranmış eposdur, onun estetik-əxlaqi səviyyəsi də onun vahid, bölünməz bütövlüyündə, yaxud nəsr və nəzmin strukturunun birgə aspektində müzakirəsi zamanı tamamilə dərk olunar. Belə ki, indi bu eposun poetik səviyyəsinə də toxunmalıyıq. Başqa cür desək, bu qəhrəmanlıq eposundan fışqırıb çıxan qəhrəman ruhunu, nə də onun estetik məftunluğunu heç cür mənimsəyə bilmərik.

Belə ki, təhlil olunan qəhrəmanlıq eposunda böyük və əhəmiyyətli yer tutan şeirlərin strukturunu qısaca hər şərh etməli olacağıq.

Hər şeydən öncə, əminliklə bəyan etmək istədiyim odur ki, bu qəhrəmanlıq eposunda nəzm və nəsr strukturları kəskin şəkildə bir-birindən ayrıdır. Bunu ona görə qeyd edirəm ki, erkən türkdilli xalqların yaradıcılığında nəzm ritmik poeziyadan ayrılmamışdır. İllah da ki, "Dədə Qorqud" kimi tanınan qəhrəmanlıq eposunda bu iki, bir-birindən fərqlənən növ və formanı ayırmaqda çətinlik çəkilir. Çünki o dövrlər (XVI-XVII əsrlər) şeirin strukturu dolğun olaraq formalaşmamışdır, bu barədə də yuxarıda (III fəsil) geniş söhbət açdım və bir daha təkrar etməyəcəyəm.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “ახალი გზა” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 OKTYABR 2023-CÜ İL № 020 (191)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# MİLLİ MÜƏLLİM GÜNÜ 11 MÜƏLLİM 10 MİN LARİ İLƏ MÜKAFATLANDIRILIB




Hökumətin qərarı ilə 27 oktyabr Gürcüstanda Milli Müəllim Günü kimi qeyd edilir. Milli Müəllim Günü ilə əlaqədar ilin 11 ən yaxşı müəlliminin adı artıq açıqlanıb. Onların hər birinə 10 min lari pul mükafatı və döş nişanları verilib. İlin ən yaxşı müəllimləri arasında Marneuli bələdiyyəsinin Qasımlı kənd məktəbinin ingilis dili müəllimi Samirə İsmayılova da var.

**İlin ən yaxşı 11 müəllimi bunlardır:**

- Medea Tramakidze – Eredvi bələdiyyəsinin Erqnet ictimai məktəbinin riyaziyyat müəllimi;
- Venera Abuselidze – Batumi 18 saylı məktəbin fizika müəllimi;
- Kaxaber Çakvetadze – Çxaltubo bələdiyyəsinin Kvitiri kəndinin tarix müəllimi;
- Marina Berianidze – Tsalka 1 saylı ictimai məktəbin biologiya və təbiət elmləri müəllimi;
- Medea Borçaşvili – Axmet bələdiyyəsinin Diusi kənd ictimai məktəbinin gürcü dili və ədəbiyyatı müəllimi;
- Nazibrola Mikeladze – Xulo bələdiyyəsinin Sxalti ictimai məktəbinin gürcü dili və ədəbiyyatı müəllimi;
- Nunu Andquladze – Çoxatauri bələdiyyəsinin Tsipnari kənd ictimai məktəbinin ibtidai siniflər üçün gürcü dili və riyaziyyat müəllimi;
- Petre Babilua – Tbilisi “Avropa məktəbi”nin riyaziyyat müəllimi;
- Samirə İsmayılova – Marneuli bələdiyyəsinin Qasımlı kənd ictimai məktəbinin ingilis dili müəllimi;
- Elmira Kspoyan – Ninotsminda 1 saylı ictimai məktəbin erməni dili və ədəbiyyatı müəllimi;
- Nino Calağonia – Tbilisi 141 saylı ictimai məktəbin gürcü dili və ədəbiyyatı müəllimi.

Qeyd edək ki, Gürcüstanda Milli Müəllim Günü bu il təsis edilib və hər il oktyabrın 27-də pedaqoq və ictimai xadim İakob Qoqebaşvilinin doğum günündə qeyd olunacaq.

*Mənbə: etaloni.ge*

# ŞAİR AĞACAN HAQQINDA KİTAB NƏŞR EDİLİB




Azərbaycan Aşıqlar Birliyinin (AAB) katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun müəllifi olduğu “Şair Ağacan: ömür yolu, mühiti və sənəti” adlı kitab işıq üzü görüb. Kitab əslən Qərbi Azərbaycandan olub, sonradan ömrünün çox hissəsini Borçalıda yaşayan, ötən əsrin 30-40-cı illərindəki sovet repressiyasının qurbanlarından olan Şair Ağacanın həyat və yaradıcılığına həsr olunub.

Ağacan Cabbar oğlu Cabbarlı 1876-cı ildə Qərbi Azərbaycanın Şorayıl mahalındakı Qarakilsə (Qaraisə) kəndində anadan olub. Erməni zülmündən yaxa qurtarmaq üçün sonradan Marneuli rayonunun Qaçağan kəndində məskunlaşıb, ömrünün çox hissəsini burada yaşayıb-yaradıb. Borçalıda aşıq sənətinin inkişafında böyük xidmətləri olan Ağacan Cabbar oğlu 1943-cü ildə sovet hökuməti əleyhinə təbliğatda günahlandırılaraq həbs olunub, yalnız Səməd Vurğunun köməkliyi ilə həbsdən yaxasını qurtara bilib. 1949-cu ildə ikinci dəfə həbs olunub və Sibirə sürgün edilib. 1951-ci ildə Sibirdə sürgündə ikən vəfat edən Şair Ağacanın nəşinin qalıqlarını 1956-cı ildə bəraət aldıqdan sonra Borçalıya qayıdan həyat yoldaşı məzardan çıxararaq Vətənə gətirib və burada yenidən torpağa tapşırıb.

Şair Ağacanın yaradıcılığı indiyədək əsaslı şəkildə tədqiq olunmasa da, bu böyük saz-söz ustadının şeirləri və yaratdığı dastanlar bu gün də aşıqların repertuarında mühüm yer tutur.

“Bakı Mətbəəsi” ASC-də yüksək poliqrafik tərtibatla nəşr olunmuş kitabın elmi məsləhətçisi Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, elmi redaktoru ADPU-nun Ədəbiyyat kafedrasının müdiri, dosent Razim Məmmədli, rəyçi folklorşünas alim, Əməkdar mədəniyyət işçisi Elxan Məmmədli, tərtib edən isə Şakir Qurbandır.

# TBİLİSİDƏ AZƏRBAYCAN DRAM TEATRININ YENİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ KEÇİRİLİB




Tbilisidə Heydər Əliyev adına Azərbaycan Dram Teatrının yeni binasının təməlqoyma mərasimi keçirilib.

Mərasimdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Azərbaycanın Baş naziri Əli Əsədov, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze, eləcə də hər iki ölkədən digər dövlət və hökumət rəsmiləri, gürcü və azərbaycanlı ictimai xadimlər, iş adamları, media nümayəndələri iştirak ediblər.

Layihəyə əsasən, Tbilisidə, Azərbaycan səfirliyinin yanında yerləşən yeni teatrın ümumi ərazisi 2565 kvadrat metr olacaq.

Yeni teatr binası inşa ediləcəyi torpaq sahəsində yerləşən tarixi binanın restavrasiyası və sahəsinin genişləndirilməsi hesabına tamamlanacaq.

Teatr binasının ümumi tamaşaçı tutumunun 256 nəfər olacağı bildirilir.

# GÜRCÜSTAN HÖKUMƏTİ 8 ELEKTRİK STANSİYASI TİKMƏYİ PLANLAŞDIRIR



Gürcüstan Hökuməti ölkənin müxtəlif regionlarında, o cümlədən Samtsxe-Cavaxeti, Kaxeti, Şida Kartli və İmeretidə 3 külək və 5 su elektrik stansiyası tikmək niyyətindədir. Bu məsələ Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin rəhbərliyi ilə hökumətin oktyabrın 23-də keçirilən iclasında müzakirə olunub.

Bildirilib ki, İqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə təqdim olunan enerji stansiyalarının gücü 250 MVt-dan, investisiyaların ümumi həcmi isə 400 milyon ABŞ dollarından artıqdır.

Sözügedən elektrik stansiyalarının tikintisi ilə əlaqədar investor şirkətləri ilə müvafiq müqavilələr imzalanacaq, onların əsasında layihələrin texniki-iqtisadi əsaslandırılması öyrəniləcək, daha sonra tikinti işlərinə başlanacaq.

# AZƏRBAYCAN GÜRCÜSTANIN ƏN BÖYÜK İXRAC TƏRƏFDAŞI OLUB



Gürcüstanın Milli Statistika İdarəsinin yaydığı məlumata əsasən, Azərbaycan bu il Gürcüstanın ən böyük ticarət tərəfdaşı olub. Gürcüstan cari ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana 632,68 milyon dollar dəyərində mal və məhsul ixrac edib.

Bildirilib ki, Gürcüstandan Azərbaycana mal ixracı 2022-ci illə müqayisədə 29,5 faiz artaraq ümumi ixracın 13,7 faizini təşkil edib.

Ötən ilin yanvar-sentyabr ayları ərzində (9 ayda) Gürcüstandan Azərbaycana 488,67 milyon dollar dəyərində mal ixrac olunub.

Qeyd edilib ki, cari ilin ilk 9 ayı ərzində Gürcüstanın ümumi ixracı illik ifadədə 12,7 faiz artaraq 4,607 milyard dollara çatıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.